X

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

**«Təsdiq edirəm»:**
**Tədris məsələləri üzrə prorektor vəzifəsini**
**icra edən:________________dos.Z.Məmmədov**
**"_12_" _____09_____ 2025-ci il**

**Fənn sillabusu**

İxtisas: 050120- Məktəbəqədər təlim və tərbiyə
Fakültə: Filologiya və ibtidai təhsil
Kafedra:İbtidai təhsil və məktəbəqədər təlim
**I.Fənn haqqında məlumat:**
Fənnin adı: Məktəbəqədər təhsilin inkişaf tarixi.
Kodu:İPF-B 22
Tədris ili: I (2025/2026), Semestr: I
Tədris yükü. Cəmi 150 saat. Auditoriya saatı - 45 saat (30 saat mühazirə,15 saat seminar)
Tədris forması: Əyani
AKTS üzrə kredit: 5 kredit
**II.Müəllim haqqında məlumat:**
Adı, soyadı, dərəcəsi: *Mühazirə müəllimi: Əliyeva Mailə Kazım qızı, baş müəllim; Seminar müəllimi: Nağıyeva Zenfira Şuriyə qızı, baş müəllim*
Kafedranın ünvanı: Lənkəran ş., H.Abdullayev k.22
Məsləhət günləri və saatı:
E-mail ünvanı: mailaaliyeva06@gmail.com, zenfiranagiyeva72@gmail.com
**III.Tövsiyə olunan dərsliklər və dərs vəsaitləri:**

**Əsas ədəbiyyat**


1. Məktəbəqədər pedaqogika tarixi (M.Şabayevanın redaktəsi ilə), Bakı-2014.
2. Rüstəmova N.M. Məktəbəqədər pedaqogika tarixi, Bakı-2004.
3. Komenski Y.A. Seçilmiş pedaqoji əsərləri, Bakı-2004.
4. Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri, Bakı-2014.
5. Pestalotsi İ.H. Seçilmiş pedaqoji əsərləri, Bakı-2016.
6. Rüstəmov F.A. Pedaqogika tarixi, Bakı-2006.
7. Seyidov Ə.Y. Pedaqogika tarixi, Bakı-2014.


**Əlavə ədəbiyyat**


8. Suxomlinski V.A. Vətəndaşın doğulması, Bakı-2015.
9. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri, Bakı-2016.
10. Azərbaycan Respublikasının Konstitusiyası (Əsas Qanun) Bakı, 2016
11. Məktəbəqədər pedaqogika. Bakı, 2015


**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən başqa fənlərin tədris olunmasına zərurət yoxdur.
**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.
**VI. Fənnin təsviri və məqsədi**: XX əsrdə Azərbaycanın ikinci dəfə dövlət müstəqilliyi əldə etməsi, onun qorunması və çiçəklənməsi, inkişaf etdirilməsi üçün bütün xalqın əzmlə mübarizə aparmasını tələb edir. Müstəqil dövləti qurmaq, yaratmaq və inkişaf etdirmək üçün yetişməkdə olan nəslin üzərinə mühüm vəzifələr düşür. Məktəbəqədər təlim-tərbiyə işində, təhsilimizdə, iqtisadiyyatımızda köklü dəyişikliklər var. Əldə etdiyimiz tarixi uğurlarımızı bir daha inkişaf etdirmək üçün bu gün erməni cəlladları ilə üzbəüz mübarizə şəraitində olduğumuzu hər an unutmamalıyıq.

Belə ki, məktəbəqədər yaşlı uşaqların və bütün gəncliyin mənəvi-estetik, əmək, vətənpərvərlik, əxlaq, fiziki, yoldaşlıq, dostluq, qayğıkeşlik, insanpərvərlik, ekoloji, dünyagörüşü və s. tərbiyəsi işi gündəmdə mötəbər yer tutmalı və günbəgün canlandırılmalıdır. Gənc nəslin, o cümlədən məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin qarşısında duran başlıca məqsədlərə və hərtərəfli biliyə, mütərəqqi dünyagörüşə, milli və ümumbəşəri əxlaqa, mənəviyyata və mədəni dəyərlərə yiyələnən şəxsiyyət formaalaşdırmaq və cəmiyyətimiz üçün layiqli vətəndaşlar yetişdirmək olduğundan hazırda məktəbəqədər müəssisələrdə uşaqların tərbiyəsini müasir tələblər səviyyəsinə qaldırmaq vacibdir. O cümlədən hesab edirik ki, kiçik yaşlı uşaqların inkişafı, tərbiyəsi və təhsili haqqında dünya mütəfəkkirlərinin nəzəriyyələrini öyrənmək, tədqiq etmək, eyni zamanda müasir iş prosesində bundan istifadə etmək faydalı olar.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı normativ sənədlərdə müəyyən olunmuş həddən yuxarı olduğu halda, tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fəndən akademik borcu qalır.

**VIII.Qiymətləndirmə**: Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində , 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və ya laboratoriya dərslərində fəaliyyətinə və 30 bal kollokviumların nəticələrinə görə. İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan biletinə, bir qayda olaraq fənn üzrə proqram materialını əhatə edən 5 sual daxil edilir. Hər sual 10 bala qədər qiymətləndirilir.

**Qiymət meyarları aşağıdakılardır:**

-10 bal- tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.

-9 bal-tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.

-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;

-7 bal- tələbə keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir

-6 bal- tələbənin cavabı əsasən düzgündür.

-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.

-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;

- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;

- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.

-0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

*Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)*

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | əla | A |
| 2. | 81-90 | çox yaxşı | B |
| 3. | 71-80 | yaxşı | C |
| 4. | 61-70 | kafi | D |
| 5. | 51-60 | qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:**Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.

**X.Təqvim-mövzu planı: 30 saat mühazirə , 15 saat seminar**

| N | Keçilən mühazirə mövzularının məzmunu | Saat | Tarix |
|---|---|---|---|
| | **I kollokvium mövzuları** | | |
| 1. | **Tərbiyə, onun meydana gəlməsi və inkişaf dövrləri** | 2 | 2 |

| | | | |
|---|---|---|---|
| | Plan: 1.Tərbiyənin yaranması və ailə tərbiyəsinin təşəkkülü. 2.Ailə ilk tərbiyə ocağıdır. 3.Qərb pedaqoqlarının ailə haqqında düşüncələri. 4.Azərbaycan pedaqoji fikir tarixində ailənin rolu.<br>*Mənbə:* [1;2] | | |
| 2 | **Qədim dünyada tərbiyə və təhsil.**<br>Plan: 1. Mesopotomiyada məktəb və təhsil 2. Şumer məktəbi, onun ixtirası və təkmilləşməsi. 3. Sparta və Afinada tərbiyə və təhsil. 4. Qədim Misirdə və Romada tərbiyə və təhsil.<br>*Mənbə:* [1;2;3;8,10] | 2 | 2 |
| 3. | **Orta əsr sivilizasiyalarında tərbiyə və təhsil.**<br>Plan: 1.Qədim Çində tərbiyə və təhsil. 2. Qədim Hindistanda tərbiyə və təhsil. 3. Qədim türklərdə tərbiyə və təhsil.<br>*Mənbə:* [1;2;3;8] | 2 | 2 |
| 4. | **Antik fəlsəfədə pedaqoji fikirlər.**<br>Plan: 1. Antik filosofların tərbiyə haqqında fikirləri. 2. Qədim yunan filosoflarından Demokrit, Pifaqor, Konfutsi, Sokrat və Aristotelin təbiyə və təhsil haqqında fikirləri.<br>*Mənbə:* [1;2;3] | 2 | 2 |
| 5. | **İslamiyyətdə tərbiyə məsələlərinin qoyuluşu**<br>Plan 1. İslamiyyətdə tərbiyə məsələlərinin səciyyəvi xüsusiyyətləri 2. İslamda tərbiyə işinin prinsipləri 3. "Qurani-Kərim"də tərbiyə və öyrətmə, öyrənmə məsələləri.<br>*Mənbə:* [1;2;11] | 2 | 2 |
| 6. | **İntibah dövründə Qərbi Avropada məktəbəqədər tərbiyə və təhsil (XVII əsrin ortaları)**<br>Plan: 1. Məktəbəqədər pedaqogikanın bir elm kimi formalaşması və inkişafı. 2. Y.A.Komenskinin tərbiyə haqqında fikirləri və kəşfləri. 3. Böyük Didaktika. 4. "Ana qucağı" məktəbi.<br>*Mənbə:* [1;2;3;8] | 2 | 2 |
| 7. | **XV əsr Avropa klassiklərinin tərbiyə və təhsil haqqında fikirləri. .**<br>Plan: 1. C.Lokkun tərbiyə haqqında fikirləri. 2. J.J.Russonun fikirləri.<br>*Mənbə:* [1;2;3;8 | 2 | 2 |
| | **II kollokvium mövzuları** | | |
| 8. | **Pedaqogika klassiklərinin məktəbəqədər təhsil və tərbiyə haqqında düşüncələri.**<br>Plan:1.1.Fransız materialist Adrian Helvetsinin fikirləri. 2. Alman pedaqoqu H.Pestalotsinin tərbiyə haqqında fikirləri. 3. İ.F.Herbartın düşüncələri. 4.A.Desterveqin tərbiyə haqqında fikirləri.<br>*Mənbə:* [1;2;3;10;11] | 2 | 2 |
| 9. | **Rusiya klassiklərinin məktəbəqədər pedaqogikanın tərbiyə və təhsil haqqında düşüncələri. (XIX əsr və XX əsr)**<br>Plan: 1.K.D.Uşinskinin pedaqoji fikirləri. 2.Y.N.Vodovozovanın düşüncələri. 3. A.S.Makarenkonun pedaqoji fikirləri.<br>*Mənbə:* [1;10;11] | 2 | 2 |
| 10. | **Böyük Şərq mütəfəkkirlərinin tərbiyə və təhsil haqqında fikirləri.**<br>Plan:1.N.Gəncəvinin tərbiyə haqqında fikirləri. 2. Görkəmli mütəfəkkir N.Tusinin müdrik kəlamları. 3. M.Füzuli orta əsr pedaqoji fikrin görkəmli mütəfəkkiri kimi.<br>*Mənbə:* [1;2;3;8] | 2 | 2 |
| 11 | **XVIII və XIX əsrin birinci yarısında görkəmli Azərbaycan** | 2 | 2 |

| | | | |
|---|---|---|---|
| | **maarifpərvərlərinin tərbiyə və təhsil haqqında fikirləri.**<br>Plan: 1.A.A.Bakıxanovun tərbiyə haqqında fikirləri. 2. A.A.Bakıxanovun əxlaqi görüşləri. 3.S.Ə.Şirvaninin əsərlərində təlim və təhsil.<br>*Mənbə:* [1;2] | | |
| 12. | **XIX əsr və XX əsrin birinci yarısında görkəmli Azərbaycan maarifçilərinin tərbiyə və təhsil haqqında fikirləri.**<br>Plan: 1.Reşid Bəy Əfəndiyev tərbiyə və təhsil haqqında. 2. Böyük pedaqoq F.B.Köçərlinin pedaqoji fikirləri. 3. C.Məmmədquluzadənin təhsil və tərbiyə haqqında görüşləri.<br>*Mənbə:* [1;2;3;4,8,10;] | 2 | 2 |
| 13. | **Azərbaucan xalqının maariflənməsində və tərəqqisində ziyalıların rolu.**<br>Plan:1.M.Ə.Sabirin uşaq şerlərində əxlaq və mənəvi tərbiyə məsələləri. 2.Məktəbəqədər tərbiyə müəssisələrinin yaranmasında N.Nərimanovun böyük rolu. 3. A.Səhhət və A.Şaiqin şer və təmsillərində əxlaqi ideyalar.<br>*Mənbə:* [1;2;3;4,8,9,10] | 2 | 2 |
| 14. | **Azərbaycanda məktəbəqədər müəssisələrin yaranması və inkişafı.**<br>Plan: 1. Azərbaycan xalqının maariflənməsində xeyriyyəçi H.Tağıyevin rolu. 2. XX əsrin əvvəllərində maarif və mədəniyyət sahəsində ciddi canlanmalar. 3. Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin yaranması.<br>*Mənbə:* [1;2,5,7,9,10 | 2 | 2 |
| 15. | **Müstəqillik dövründə Azərbaycanda məktəbəqədər təhsilin inkişafı.(XX əsrin sonu və XX əsrin əvvəlləri.)**<br>Plan: 1. Müstəqillik dövründə məktəbəqədər sahənin yenidən qurulması. 2. Məktəbəqədər təhsilin kurikulumu.<br>*Mənbə:* [1;2,5,6,8] | 2 | 2 |
| | Cəmi: | 30 | 30 |

| N | Keçilən seminar mövzularının məzmunu | saat | tarix |
|---|---|---|---|
| 1 | **Tərbiyə, onun meydana gəlməsi və inkişafı. Qədim dünyada tərbiyə və təhsil.** | | |
| 2 | Orta əsr sivilizasiyalarında tərbiyə və təhsil.Antik fəlsəfədə pedaqoji fikir. | 2 | |
| 3 | İslamiyyətdə tərbiyə məsələlərinin qoyuluşu. | 2 | |
| 4 | İntibah dövründə məktəbəqədər tərbiyə və XV əsr Avropa klassiklərinin tərbiyə və təhsil haqqında düşüncələri. | 2 | |
| 5 | Pedaqogika klassiklərinin məktəbəqədər məktəbəqədər təhsil və tərbiyə haqqında düşüncələri. Rusiya klassiklərinin məktəbəqədər təhsil haqqında fikirləri. | 2 | |
| 6 | Böyük Şərq mütəfəkkirlərinin tərbiyə və təhsil haqqında müdrik fikirləri. XVIII əsr Azərbaycan maarifpərvərlərinin tərbiyə və təhsil haqqında fikirləri. | 2 | |
| 7 | XIX və XX əsrin birinci yarısında görkəmli Azərbaycan maarifçilərinin tərbiyə və təhsil haqqında fikirləri. Azərbaycan xalqının maariflənməsində və tərəqqisində ziyalıların rolu. | 2 | |
| 8 | Azərbaycanda məktəbəqədər müəssisələrin yaranması və inkişafı. Müstəqillik dövründə məktəbəqədər təhsilin inkişafı. | 1 | |

**XI.Fənn üzrə tələblər, tapşırıqlar:** Təlim nəticəsində tələbələrin əldə etməli olduqları təsəvvür, vərdiş və bacarıqları:- informasiya mənbəyi ilə işin bacarıq və vərdişi;- təhliletmə bacarıq və

vərdişlərin formalaşdırılması. Öyrənən tanış olur:- məktəbəqədər təhsilin inkişafı tarixi, bu işdə əməyi olan, Azərbaycan pedaqoqlarının fəaliyyəti ilə.

**XII. Fənn üzrə təlim nəticələri.**

- Tərbiyə anlayışı, onun mahiyyəti və müxtəlif dövrlərdə ona qoyulan tələbləri bilir və şərh edir.
- İslamiyyətdə tərbiyə haqqında fikirləri mənimsəyir.
- Avropada ayrı-ayrı pedaqoqların tərbiyə haqqında fikirlərinə münasibət bəsləyir.
- Azərbaycanda tərbiyə haqqında mütəfəkkirlərin fikirlərini bilir.
- Azərbaycanda məktəbəqədər tərbiyə, təhsil və müəssisələrin inkişaf tarixini bilir.

**I KOLLOKVİUM SUALLARI**

1. Tərbiyənin yaranması və ailə tərbiyəsinin təşəkkülü.
2. Azərbaycan pedaqoji fikir tarixində ailənin rolu.
3. Mesopotomiyada məktəb və təhsil.
4. Sparta və Afinada tərbiyə və təhsil.
5. Qədim Misirdə və Romada tərbiyə və təhsil.
6. Qədim Çində tərbiyə və təhsil.
7. Qədim Hindistanda tərbiyə və təhsil.
8. Qədim türklərdə tərbiyə və təhsil.
9. Antik filosofların tərbiyə haqqında fikirləri.
10. İslamiyyətdə tərbiyə məsələlərinin səciyyəvi xüsusiyyətləri.

**II KOLLOKVİUM SUALLARI**

1. Məktəbəqədər pedaqogikanın bir elm kimi formalaşması və inkişafı.
2. Y.A.Komenskinin tərbiyə haqqında fikirləri.
3. "Ana qucağı" məktəbi.
4. C.Lokkun tərbiyə haqqında fikirləri.
5. J.J.Russonun fikirləri. fikirləri.
6. Alman pedaqoqu İ.H.Pestalotsinin tərbiyə haqqında fikirləri.
7. K.D.Uşinskinin pedaqoji fikirləri.
8. A.S.Makarenkonun pedaqoji fikirləri.
9. N.Gəncəvinin tərbiyə haqqında fikirləri.
10. A.A.Bakıxanovun əxlaqi görüşləri.

**XIII. İmtahan sualları:**

1. Tərbiyənin yaranması və ailə tərbiyəsinin təşəkkülü.
2. Ailə ilk tərbiyə ocağıdır.
3. Qərb pedaqoqlarının ailə haqqında düşüncələri.
4. Azərbaycan pedaqoji fikir tarixində ailənin rolu.
5. Mesopotomiyada məktəb və təhsil.
6. Şumer məktəbi, onun ixtirası və təkmilləşməsi.
7. Sparta və Afinada tərbiyə və təhsil.
8. Qədim Misirdə və Romada tərbiyə və təhsil.
9. Qədim Çində tərbiyə və təhsil.
10. Qədim Hindistanda tərbiyə və təhsil.
11. Qədim türklərdə tərbiyə və təhsil.
12. Antik filosofların tərbiyə haqqında fikirləri.
13. İslamiyyətdə tərbiyə məsələlərinin səciyyəvi xüsusiyyətləri.
14. İslamda tərbiyə işinin prinsipləri.
15. "Qurani-Kərim"də tərbiyə, öyrətmə və öyrənmə məsələləri.
16. Məktəbəqədər pedaqogikanın bir elm kimi formalaşması və inkişafı.

17. Y.A.Komenskinin tərbiyə haqqında fikirləri və kəşfləri.
18. Böyük Didaktika.
19. "Ana qucağı" məktəbi.
20. C.Lokkun tərbiyə haqqında fikirləri.
21. J.J.Russonun fikirləri.
22. Fransız materialist A.Helvetsinin fikirləri.
23. Alman pedaqoqu İ.H.Pestalotsinin tərbiyə haqqında fikirləri.
24. İ.F.Herbartın düşüncələri.
25. A.Desterveqin tərbiyə haqqında fikirləri.
26. K.D.Uşinskinin pedaqoji fikirləri.
27. Y.N.Vodovozovun düşüncələri.
28. A.S.Makarenkonun pedaqoji fikirləri.
29. N.Gəncəvinin tərbiyə haqqında müdrik fikirləri.
30. Görkəmli mütəfəkkir N.Tusinin müdrik fikirləri.
31. Məhəmməd Füzuli orta əsr pedaqoji fikrin görkəmli mütəfəkkiri kimi.
32. A.A.Bakıxanovun tərbiyə haqqında fikirləri.
33. A.A.Bakıxanovun əxlaqi görüşləri.
34. S.Ə.Şirvaninin əsərlərində təlim və təhsil.
35. R.B.Əfəndiyev tərbiyə və təhsil haqqında
36. Böyük pedaqoq F.B.Köçərlinin məktəbəqədər təhsil haqqında pedaqoji fikirləri..
37. C.Məmmədquluzadənin tərbiyə və təhsil haqqında görüşləri.
38. M.Ə.Sabirin uşaq şerlərində əxlaq və mənəvi tərbiyə məsələləri.
39. Məktəbəqədər tərbiyə müəssisələrinin yaranmasında N.Nərimanovun rolu.
40. A.Səhhət və A.Şaiqin şer və təmsillərində əxlaqi ideyalar.
41. Azərbaycan xalqının maariflənməsində xeyriyyəçi H.Tağıyevin rolu.
42. XX əsrin əvvəllərində maarif və mədəniyyət sahəsində ciddi canlanmalar.
43. Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin yaranması.
44. Müstəqillik dövründə məktəbəqədər sahənin yenidən qurulması.
45. Məktəbəqədər təhsilin kurikulumu.

**Sillabus İbtidai təhsil və məktəbəqədər təlim kafedrasının 05 sentyabr 2025-ci il tarixli iclasında (protokol № 01) müzakirə edilərək təsdiq olunmuşdur.**

**Kafedra müdiri:** [signature] **dos. A.B.Əliyev**

**Mühazirə müəllimi:** [signature] **B/m M.K.Əliyeva**

**Seminar müəllimi:** [signature] **B/m Z.Ş.Nağıyeva**